Buludxan XƏLİLOV,
*filologiya elmləri doktoru, professor*



# ERMƏNİ XİSLƏTİ: TARİXİ HƏQİQƏTLƏR

Başımıza gələn bütün acı həqiqətlərin kökündə o durur ki, taleyimizi, taleyimizlə bağlı bir sıra məsələləri başqa millətlərin səlahiyyətlərinə vermişik. Bir fakt: 1917-ci il, mart ayının 7-nə keçən gecədə Bakı Fəhlə-Əsgər Deputatları Soveti quruldu. Şəhərdə bütün partiyalar fəaliyyətə başladı. 1917-ci ilin oktyabr ayında Petroqradda açılacaq II Ümumrusiya Sovetlər Qurultayına S.G.Şaumyanı, M.S.Semyonovu, A.M.Raşkeviçi və sol eser İ.A.Suxatsevi Bakı Soveti nümayəndə seçir. Bunlar Sovetlər qurultayında Azərbaycanı təmsil edəcəkdilər. Azərbaycanı təmsil edəcək insanlar arasında bir nəfər də olsun azərbaycanlı olmamışdır. Hələ 1917-ci il, noyabrın 2-də Bakıda Sovet Hakimiyyəti elan edildikdən sonra İcraiyyə Komitəsinə seçilənlər arasında da bir nəfər azərbaycanlı olmamış: bolşeviklərdən S.Şaumyan, İ.Fioletov, menşeviklərdən Q.Ayolla, M.Mandelştam, eser M. Basen və daşnak Arakelyan təyin olunmuşlar. Yenə də başqa millətin nümayəndələri səlahiyyət sahibi kimi müxtəlif təşkilatlara seçilmişlər. Bax bu acı həqiqətlər həmişə işimizə əngəl yaratmış, başımıza gələn problemlərin kökündə dayanmışdır.

Ermənilərin başımıza gətirdiyi bəlalarla bağlı bir fakt: 1905-ci ildə iğtişaşla əlaqədar olaraq Şuşadakı müsəlmanlar heç yerdən ərzaq ala bilmir və buna görə də əhali aclıqdan əziyyət çəkirdi. Şeyxülislam, müfti və qazilər kömək üçün Tiflisə, canişinin yanına gedirlər. Vorontsov-Daşkov onları qəbul etmir. Xəbər göndərir ki, müsəlmanlara o da azdır. Axı Vorontsov-Daşkovun arvadı erməni qızı Liza Kinikor idi. Onun tədbiri ilə Tiflisdəki bütün sənaye, ticarət və maliyyə işləri ermənilərin əlində toplanmışdı. Ona görə də ermənilərin təsəvvürü belə idi ki, Bakıda da bütün sənaye, ticarət, maliyyə işləri ermənilərin əlində olmalıdır.

1918-1920-ci illərlə bağlı bir fakt: Erməni daşnakları Qafqazı, Bakını özlərinin hesab edir, dənizdən-dənizə olan xülyalarını, Şimalda Voronejlə sərhəddə olduqlarını, paytaxtlarının Tiflis olduğunu dillərinə gətirir, şərqilər söyləyir, Andronikin ünvanına xoş sözlər deyirdilər. Andronik isə Azərbaycan xalqının düşməni, qatili və qaniçəni olub. Onun Azərbaycan xalqına və türklərə qarşı törətdiyi əməllər heç vaxt unudula bilməz. Manaf Süleymanov belə hesab edir ki, Andronik barədə ən düzgün xarakteristikanı SSRİ Xarici İşlər komissarı Q.V.Çiçerin vermişdir. Q.V.Çiçerin 1924-cü ildə, aprel ayının 28-də Moskvada Zaqafqaziya tələbələrinin Azərbaycan KP Bakı təşkilatının 25 illiyi və Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 4-cü ildönümünə

həsr edilmiş yığıncağındakı məruzəsində Androniki Antantanın agenti adlandırmışdır. Antanta agenti Andronik cəhd edirdi ki, Qafqazdan keçib özünü Urmiyaya çatdırsın, ingilislərin Denstervil ekspedisiyasının dəstələri ilə birləşsin. Lakin türk əsgərləri Urmiya və Təbrizi Denstervildən tez tutdular və onu geri çəkilməyə vadar etdilər.

Ermənilərin bir bədbəxtliyi də ondadır ki, hay-küyə tez gedir, təsir altına düşür, boş xəyallarla yaşayırlar. Həmişə erməni-müsəlman ziddiyyəti ermənilərin ərköyünlüyü, sədaqətsizliyi, xəyanəti nəticəsində başlayıb. Erməni xislətindəki xəyanət heç zaman imkan verməyib ki, onlar qonşuluq münasibətini qoruyub saxlaya bilsinlər. Onların bu xislətini bilənlər də bundan məharətlə istifadə ediblər və indi də istifadə edirlər. Ermənilər isə bu acı həqiqətlərdən dərs ala bilmirlər. Odur ki, hər dəfə erməni-müsəlman arasındakı ziddiyyətin mərkəzində erməni xəyanətini görməmək olmur.

Erməni ilə nə qədər yaxın olsan da, silahı əldən qoymaq olmaz. Onunla olan münasibətdə ehtiyatı əldən vermək olmaz. Onların xisləti heç zaman imkan vermir ki, axıra qədər səmimi və sadiq olsunlar. Ermənilərin səmimiyyət göstərdikləri məqamlar da qorxular və xəyanətlərlə doludur.

1918-ci ilin mart qırğınında iş o yerə çatır ki, ermənilər Bakı şəhərində at oynadır, hətta onlara yaxın olan müsəlman ailələrini belə bu bəladan qorumaq istəyirlər. Gör bunların iddiaları, gücü, özlərinə arxayınlıqları gəlib hansı səviyyəyə çatır ki, öz evimizin içində firavan, zəngin, azad və arxayın yaşayışları ilə qane olmayıb erməni-müsəlman qarşıdurmasında müsəlmanı (özlərinə yaxın müsəlmanları ) "qorumaq" fikrinə düşürlər. Bu mənada, Manaf Süleymanov 1918-ci ilin mart qırğını ilə bağlı yazdıqlarında belə qeyd edir: "Mart hadisələri vaxtı Bakıda qalmış müsəlman dövlətliləri Abşeron bağlarında, bəziləri şəhərdəki dostları, qudaları erməni dövlətlilərinin evində daldalanıb firavan yaşayırdılar. Mən Hacı Zeynalabdin Tağıyevin qızlarının birindən mart hadisələri barədə soruşanda o, əhvalatı belə nəql etdi: "Şəhərdə atışma başlayanda erməni milyonçusu Melikov öz oğlunu – Jorj Melikovu avtomobildə bizə göndərmişdi. Jorj içəri girən kimi dedi: "Hacı, evimizdə hamı sizdən nigarandır. Qorxurlar ki, sizə xətər yetirərlər. Atam deyir ki, gəlib qalsın bizim evdə. Bu atışmada məni dalınızca yollayıb. Maşın aşağıdadır... Durun gedək. Evimizdə başqa müsəlman dövlətliləri də var".

Hacı cavab verdi ki, çox sağ ol, oğlum, çox razıyam. Mən evimdən heç yana gedən deyiləm!

"Hacı, – deyə Jorj Melikov həyəcanla, səsi titrəyə-titrəyə əlavə etdi, – sizi öldürə bilərlər... Durun gedək... "

Hacı dedi: "Ölümdən qaçmaq olmaz... Vaxt çatanda hər yerdə adamı yaxalayacaq... Atana mənim dilimdən çox sağ ol de. Küçələrdə ehtiyatlı ol! Get! Yolda yubanma".

İstər-istəməz sual olunur: Bakı şəhərində erməni milyonçusu nə gəzir? Bakı şəhərində erməni milyonçusu müsəlman milyonçusunu erməni daşnaklarından qoruyursa, yaxud qorumaq istəyirsə, onları belə ürəkli edən nədir? Onları cəsarətli edən kimlərdir? Bakı şəhərində müsəlmanları ermənilərin, daşnakların ixtiyarına verən kimlərdir? və s. və ilaxır. Bu sualların ümumiləşdirici cavablarından biri odur ki, erməniləri arxayın edən, yolundan azdıran, qudurdan qüvvələr, ölkələr olub və indi də onlar öz çirkin əməllərindən əl çəkmirlər. Həmin qüvvələr, ölkələr ermənilərdən bir vasitə kimi istifadə edir, onları bir əl buyruqçusu kimi öz məqsədlərinə nail olmaq üçün əllərində saxlayırlar. Öz ölkələrində bəzi ermənilərə hər cür şərait yaradaraq onları milyonçu etməkdə də məqsədləri odur ki, bu millətdən bir vasitə kimi istifadə etsinlər. Xaricdə yaşayan ermənilər, erməni diasporları, erməni milyonçuları bir vasitə kimi azərbaycanlılara, türklərə, müsəlmanlara qarşı istifadə olunur və bu hal böyük bir siyasətin tərkib hissəsi kimi davam etdirilir.

Manaf Süleymanov Hacı Zeynalabdin Tağıyevin qızının dediklərini belə qələmə alır: "Şəhərlə gediş-gəliş kəsilmişdi. Bir aya yaxın idi ki, bağda intizar içində üzülürdük. Arada min cür qorxulu şayiə gəzirdi. Yollar qorxulu idi – nə Bakıdan bağa gəlmək olurdu, nə də oradan şəhərə... Tez-tez atışma səsləri eşidilirdi... Soyğunçuluq, adam öldürmək, ev soymaq adi hadisə idi. Böyük bacım bir gün səhər tezdən yuxudan duran kimi mehtər Səmədə tapşırdı ki, faytonu qoş, şəhərə gedəcəyik. Anam əl-ayağa

düşüb onu qorxutdu, yolların xatalı olduğunu deyib buraxmaq istəməsə də, bacım qulaq asmadı: "Nə olursa-olsun, gedəcəyəm", – deyib şəhərə yola düşdü. Sağ-salamat şəhərə gəlib çatdı, gördü ki, atam, qardaşım İlyas və yeznəm Zeynalbəy evdədir. Bacım danışırdı ki, mən evə gələndən 3-4 gün keçmişdi, aşağıdakı erməni gözətçilərdən bir nəfəri gəlib bizi xəbərdar etdi ki, Hacı kabinetindən çıxmasın, o biri otaqlara keçməsin.

Hacı kürəkəni Zeynalbəyi Nəriman Nərimanovun arxasınca göndərib evə çağırtdırır. Çox çəkmir ki, Nəriman gəlir. Hacı ilə kabinetdə bir saata qədər söhbət edirlər. Gedəndə deyir ki, Hacı xəstədir, dincəlməlidir. Müalicə lazımdır".

Deməli, 1918-ci ilin mart qırğınlarında ermənilər bütün şəhəri ələ almış və nəzarətə götürmüşdülər. Hətta iş o yerə çatıbmış ki, Hacı kimi bir adamın otaqdan digər otağa keçməsinə qadağa qoymuş və bu barədə onu xəbərdar etmişlər. Hacı bu çətin vəziyyətdən qurtarmaq üçün Nəriman Nərimanovu yanına çağırır və Allah bilir ki, ermənilərin hansı oyunlarını təhlil edirlər. Təbii ki, bu gizli söhbət onların öz aralarında qalır. Ancaq Nəriman Nərimanov bir siyasət işlədərək erməni gözətçilərinə deyir ki, Hacı xəstədir, o dincəlməlidir, ona müalicə lazımdır. Bu yolla erməni gözətçilərini oradan uzaqlaşdırır. Erməni gözətçiləri yığışıb gedirlər.

Ermənilərin məqsədi nədir? Ermənilərin mətləbi nədir? Ermənilər niyə mərdiməzarlıq edirlər? Mir Möhsün Nəvvab bu sualları belə ünvanlayır: "Əvvəla, bu tayfadan (erməni) sual edirəm ki, bu qədər mərdiməzarlıq və nahaq qanlar tökməkdə, mülklərin və malların talan və tarac edilməsində, yanıb xarabazarlığa çevrilməsində səbəb və mətləbiniz nədən ibarətdir?" Mir Möhsün Nəvvab davam edərək yazır: "Əgər məqsədiniz padşahlıq və kral olmaqdırsa, sizin bu təbiətinizlə və insafsızlığınızla, heyhat, ağıla sığan şey deyil. Ağıllı və kamallı insanın sizin haqqınızdakı düşüncəsi belədir ki, belə səfeh hərəkətlərlə sizin tayfaya nəinki padşahlıq, heç koxalıq və kəndxudalıq da yaraşmır. Bu, dəfələrlə mötəbər dəlillərlə sübut olunmuşdur". Bundan başqa, Mir Möhsün Nəvvab ermənilərə layiq olduqlarını anlatmaq üçün bəzi mətləbləri də söyləmişdir. O, ermənilərə iki məqamı da bir nəsihət kimi demişdir: "Birincisi budur ki, Allah-Təala zalıma ixtiyar və iqtidar verməz. Əgər pişiyə qanad versəydi, quşların toxumunu yer üzündən kəsərdi. Hərgah dəvəyə və filə qanad versəydi, tamam damlar dağılardı.

İkincisi, özünüzə məlumdur ki, bundan əvvəl erməni tayfası çox idi, ilan kimi çölü yumşaq, içi zəhri-həlahil olduğundan, basdığını kəsdiyindən, mürüvvətsizlikdə həddini keçdiyindən və başqa xalqlara rəhm etmədiyindən, o qədər belə insafsızlıq və zülmkarlıqla məşğul olduqlarından hansı millətin əlinə düşürdülərsə, əməllərinə görə onlara layiqli cəza verirdilər".

Deməli, erməni zalımdır. Allah heç zaman zalıma ixtiyar vermir. Pişiyə, dəvəyə qanaq verilmədiyi kimi, erməniyə də iqtidar və ixtiyar verilməz. Bundan başqa, ermənilər həddini aşır, digər xalqlara rəhm etmir, insafsız və zülmkardır. Bunlar insafsız, rəhmsiz, fitnə-fəsad sahibidirlər. Elə bu pis əməllərinə görə ermənilər Yer üzündən yox olacaqlar. Mir Möhsün Nəvvab yazırdı: "Bir mötəbər ziyalı – Almaniyanın dövlət xadimi və alimi mənə dedi ki, ermənilər ki bu cür yol tutub, çox tezliklə Yer üzündən yox olacaq, onlardan bir əsər-əlamət qalmayacaqdır".

Bir sözlə, erməninin işi Allaha qalıb. Onlar da elə bir murdar xislətli millətdirlər ki, pisliklərini görə bilmədikləri üçün Allaha dua edib belə əməllərdən çəkinmələrini istəməzlər. Onlar bilməlidirlər ki, banklara pul toplamaqla, nahaq qanlar tökməklə, qəddarlıq və vəhşilik göstərməklə dövlət qurmaq mümkün olmaz.

Ermənilər bir sıra Avropa ölkələrinin, o cümlədən ingilislərin xəfiyyələri rolunda çıxış etmişlər. Onların bu xisləti hər zaman belə olub, indi də belədir, heç şübhəsiz ki, gələcəkdə də belə olacaq. Axı xisləti dəyişmək mümkün deyil. Odur ki, ermənilərdən, daşnaklardan 1918-ci ilin ortalarında xarici silahlı müdaxiləçilərin Azərbaycana soxulması üçün bir alət, vasitə kimi istifadə ediblər. Erməni daşnakları ingilis qoşunlarının Bakıya daxil olması istiqamətində qızğın təbliğat işi aparmışlar. Onların pozuculuq fəaliyyəti 1918-ci ilin 24 iyulunda nəticə vermişdir. Hətta bolşeviklər sıxışdırılır, müxtəlif tədbirlərdə biabırçı bir vəziyyətə salınır, sözləri kəsilir, tribunalardan sürülüb yerə salınırdılar. Başqa bir tərəfdən, Bakı əhalisi əziyyət çəkirdi. Ona görə ki, Şimali Qafqazdan göndəriləcək taxıl gəlib çıxmır, fəhlələrin çörək payı azaldılırdı.

Manaf Süleymanov yazır: "Mürtəce menşevik, daşnak, eser və xırda burjuaziya partiyaları əhalinin maddi vəziyyətini guya yaxşılaşdırmaq məqsədilə tezliklə İrandakı ingilis qoşunlarını Bakıya çağırmağı tələb edirdilər".

Maraqlıdır ki, Şaumyanla Arakelyan Bakının taleyini həll edir, menşeviklər, eserlər və daşnaklarla danışıqlarda bulunurlar. Daşnaklar və erməni milli şurası Bakıda aparıcı sima kimi iştirak edir. Azərbaycanın, Bakının taleyi ilə ermənilərin, daşnakların məşğul olması xoşa gəlməyən tarixi bir faktdır.

"Doktor Araratyan ingilisləri Bakıya dəvət etmək üçün iki dəfə İrana – əvvəl Həmədana, sonra Ənzəliyə getmişdi. Hər dəfə ingilislər vəd verib onu əmin etmişdilər ki, tezliklə gələcəklər, lakin vədləri boş çıxmışdı. Üzvü olduğu erməni milli şurasında, daşnak silahlı qüvvələri baş qərargahında, erməni burjuaziyası, xüsusən, neft maqnatları dairələrində mənşələri əksərən zəngin, kübar ailələrdən olan, firavan həyat tərzini itirməmək üçün fəhlə sinfinin ətəyindən yapışıb onların gücü hesabına hakimiyyətdə qalmaq istəyən və eyni zamanda proletariata xəyanət edən menşevik və eserlər ingilisləri Bakıya gətirmədiyi üçün doktor Araratyanı burunlayır, istehza edir, açıqdan-açığa məsxərəyə qoyur və hətta təhqir də edirdilər. Odur ki, Araratyan üçüncü dəfə ingilislərin ayağına İrana gedirdi, qəşəng qızını da özü ilə aparırdı..."

1918-ci ilin 4 avqust tarixində ingilis qoşunları Ənzəlidən "Abo" gəmisi ilə "Qafqaz-Merkuri" körpüsünə yaxınlaşdı. Körpüyə onları qarşılamaq üçün adamlar toplanmışdı. Daşnaklar xüsusi fəallıq göstərirdi.

Manaf Süleymanov yazır: "Bu münasibət üçün körpü xüsusi bəzədilmiş, xalılar döşənib hər tərəfdə bayraqlar sancılmışdı. Daşnaklar çox yerdə ingilis və erməni dillərində iri hərflərlə yazılmış şüarlar asmışdılar. "Erməni millətinin böyük hamisi Böyük Britaniya var olsun". "Erməni xalqının xilaskarları ingilislərə eşq olsun..." Erməni milli şurasını və daşnakları məyus edən o idi ki, onlar ingilislərdən ən azı bir ordu, müvafiq hərbi sursat və ərzaq gözləyirdilər. Ancaq polkovnik Keyvortun rəhbərliyi ilə Bakıya gələn ingilislər daşnakları və erməniləri qəzəbləndirmişdilər. Ona görə ki, ingilislərin türklərlə vuruşa biləcək silahı, sursatı və ordusu yox idi.

İngilislərin türklərlə vuruşa biləcək silahı, sursatı və ordusu yox idi. Bu mənada, Manaf Süleymanovun yazdıqları çox maraqlıdır: "...Təkcə bizə, ingilislərə ümid bağlayırsınızsa, böyük səhv edirsiniz (erməni daşnaklarına, erməni milli şurasına deyirlər – B.X.). Doktor Araratyan üçüncü dəfə İrana gələndə Qazyanda mən ona açıq-aydın demişdim ki, təkcə bizə arxayın olmayın! (Bunu ingilis generalı Denstervil gəmidən düşüb Bakı şəhərinə gəldikdə deyib – B.X.) Bakıya sizin istədiyiniz qədər hərbi qüvvə gətirə bilməyəcəyik, siz özünüz vuruşmalısınız. O da (yəni erməni Araratyan – B.X.) and-aman edib məni əmin etmişdi ki, ermənilərin güclü müsəlləh qoşunu var". Göründüyü kimi, ermənilər ingilislərin əli ilə Bakını zəbt etmək istəyində olmuş, daşnak partiyasının siyasətini həyata keçirmək istəmişlər. Ancaq ingilislər də, ermənilər də uduzurlar. 1918-ci ilin avqust ayının 31-də türklər hücuma keçib ingilis qoşunlarını darmadağın edirlər.

Manaf Süleymanov yazır: "Sentyabrın 15-də səhər saat 9-da Nuru paşanın Qafqaz İslam ordusu şəhərə daxil oldu. Məscidlərin minarələrindən azan səsləri ucalırdı".

Günahkar ermənilər, separatçılar, daşnaklar türk ordusunun Bakıya gəlişindən sonra şəhəri tərk etmək üçün müxtəlif yollar axtarırdı.

Manaf Süleymanov 1918-ci ilin sentyabr ayındakı hadisələri Şaumyanın şəxsi katibi Olqa Şatumovskayanın dilindən belə təsvir edir: "Türklər sentyabrın 15-də şəhərə girdilər. Dəhşətli günlər idi: qaça bilməyib Bakıda qalanlar zirzəmilərdə, bacaların içində, uca evlərin damında gizlənmişdilər.

Xəbər çıxanda ki Bakı-Tiflis dəmir yolu qaydaya salınır, işə düşəcək, Levon dedi ki, birinci qatarla Tiflisə yola düşməliyik, yoxsa burda qalmaq xatadır.

Getmək məgər asan idi?! Vağzalda jandarmalar və polis qarışqa kimi qaynaşırdı. Qoqoberidze sənəd düzəldib gürcü zabiti Debasigeyevi, Rumyantsovu da özünə denşik edib aradan çıxdı. Suren Ağamirov, mən və Baranov bilet alıb saxta sənəd düzəltdik ki, tələbəyik, gəldik vağzala, iki nəfər xain bizi çuğullayıb türklərə ələ verdi. Jandarmalar bir anda araya alıb bizi tutdular və sabiq Qubernator bağında olan

mülkdəki jandarma idarəsinə gətirib zirzəmiyə saldılar".

Ermənilər, daşnaklar ingilisləri Bakıya dəvət edir, lakin onların istəyi baş tutmadığına görə Bakıda ingilis qüvvələrinin, ingilis ordusunun onların xeyrinə nəsə yaratmağını görmədikdə Bakını tərk etməli olurlar. Müxtəlif nəqliyyat vasitələri ilə ermənilər, daşnaklar Bakı şəhərini tərk etmək istəyində olurlar. Bu barədə Manaf Süleymanov qeyd edir ki, jandarmalar onlardan (yəni ermənilərdən, daşnaklardan) Şaumyanın yerini öyrənmək istəyirdilər. Onlar isə deyir ki, Şaumyan gəmiyə oturub gedib, ancaq jandarmalar inanmırlar. Onları neft maqnatı Rotşildin əzəmətli mülkünə gətirirlər. Burada salona girəndə onlar Beybut Cavanşiri görürlər. Beybut Cavanşir Stepan Şaumyanın uşaqlıq və gənclik dostu olmuşdur. Bir yerdə böyüyüb təlim-tərbiyə almışdılar. Ali təhsil almaq üçün birlikdə Almaniyaya getmiş, Şaumyan fəlsəfə fakültəsini, Beybut Cavanşir mühəndisliyi qurtarmışdır. Cavanşir dəfələrlə Stepanı həbsdən buraxdırmış, ehtiyacı olanda maddi yardım etmişdir.

Türklər Azərbaycan hökumətini təşkil edəndə Beybut Cavanşiri Daxili İşlər Naziri təyin etmişlər. Manaf Süleymanov yazırdı: “Cavanşir deyir ki, Olya (milliyyətcə ermənidir), mənə deyirlər ki, Şaumyan şəhərdədir, siz isə onun yerini demək istəmirsiniz. Mən Şaumyanın dostuyam, onu harada tapsalar, öldürəcəklər. Onun adresini ver mənə, mən onun dostuyam. O, məni ölümdən xilas edib, əvəzini çıxmaq istəyirəm. Olya deyir ki, Şaumyan Bakıda deyil, ancaq Cavanşir ona inanmır. Əsəbiləşir və deyir ki, onu aparın həbsxanaya. Yeri gəlmişkən, qeyd edək ki, Nuru paşa Olyanı da, Suren Ağamirovu da Parapetdə dar ağacından asıb edam edəcəkləri barədə hökm imzalayıb təsdiq etmişdi. Odur ki, Olya inanmırdı ki, onu azad edəcəklər. Ancaq gözlənilmədən onun kamerası qarşısında səs-küy qopur. Mühafizlər kameraya girib deyirlər ki, Daxili İşlər Naziri Cavanşirin sərəncamı ilə siz azad edilirsiniz, ölüm cəzası Azərbaycandan sürgün edilməklə əvəz olunur”.

Yeri gəlmişkən, qeyd edək ki, Cavanşir ermənini dost hesab edir (yəni Şaumyanı). Onu ölümdən xilas etmək üçün harada olduğunu dəfələrlə soruşur, elə bilir ki, Olya onu aldadır. Ona görə də qəzəblənərək Olyaya qışqırır: "Siz Allahın lənətinə gəlmiş fanatiksiniz. Stepanı məhv edəcəksiniz..." Cavanşirin dosta sədaqətidir ki, o, Stepan Şaumyanın öldürülməsini istəmir. Əslində isə Olya düz deyirmiş, Şaumyan şəhərdə deyilmiş. O, Bakı şəhərini tərk etmişdi. 1918-ci ilin sentyabrında 26 Bakı komissarının Qızılqum səhrasında güllələnməsində, heç şübhəsiz ki, Stepan Şaumyan olmamışdır. Axı o, Bakını – Olyanın dediyi kimi – tərk etmişdi, başqa sözlə desək, qaçmışdı. Belə olan təqdirdə Stepan Şaumyan 26 Bakı komissarları arasında necə ola bilərdi? Təsadüfi deyil ki, 26 Bakı komissarlarına aid məzar açıldıqdan sonra orada Stepan Şaumyanın qəbri olmamış, onun cəsədinin qalıqları tapılmamışdır. Deməli, o, Bakını təklikdə tərk etmiş, şəhərdən qaçmışdır. Hətta qaçdıqdan sonra ömrünün sonuna qədər Hindistanda yaşadığı da faktdır.

Bir sözlə, ermənilər, daşnaklar Bakının əldən-ələ keçməsi üçün ingilislərə müraciət etmiş, əllərindən gələn xəyanəti və satqınlığı əsirgəməmişlər.

